# DAVAMLI İNVESTİSİYA SİYASƏTİ

**Siyasət İcmalı:** Bu siyasət ADNSU-nun investisiya portfelinin məqsəd və parametrlərini müəyyən edir, həmçinin universitetin öz investisiyaları çərçivəsində ekoloji, sosial və idarəetmə (ESİ) amillərini necə əhatə etdiyini, davamlı inkişaf məqsədlərini əks etdirir.

**Siyasətin əhatə dairəsi:** İnvestisiya siyasəti ardıcıl şəkildə və ən azı ildə bir dəfə Azərbaycan Dövlət Neft və Sənaye Universiteti Tələbə-Elmi Cəmiyyətinin tələbə nümayəndəsinin daxil olduğu İnvestisiya Komitəsi tərəfindən nəzərdən keçirilir.

**Davamlı İnvestisiya Strategiyası:** Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin 2026-cı il strategiyasının bir hissəsi olaraq, universitet 2050-ci ilə qədər karbon qazını neytrallaşdırmaq məqsədi ilə karbon qazı təsirini azaltmağı hədəfləyir. Bu hədəfə uyğun olaraq, universitet öz portfellərinin ən yüksək ESİ standartlarına uyğun olaraq sərmayə qoyur.

Strategiyaya əsasən, davamlılığa və maliyyə gəlirlərinə məsuliyyətli yanaşma bir-birini istisna etmir, əksinə ekoloji və sosial məsələlərə davamlı yanaşmanı təmin edən şirkətlər uzunmüddətli kapitalın daha effektiv idarəçiləridir.

Davamlı İnvestisiya Strategiyası aşağıdakı amilləri nəzərə almaqla tərtib edilir:

- Birləşmiş Millətlər Təşkilatının aidiyyatı prinsiplərinin rəhbər tutulması
- ESİ məsələlərinin investisiya təhlilinə daxil edilməsi
- Sosial və ekoloji məsələlərlə aktiv şəkildə məşğul olmaqla yanaşı, İnvestisiya Komitəsinə mütəmadi olaraq hesabatın təqdim edilməsi və gedişatın izlənilməsi

ADNSU, həmçinin BMT-nin Qlobal Sazişinin prinsiplərini dəstəkləyir. Bu prinsiplər insan hüquqlarının müdafiəsi, ətraf mühitin qorunması, korrupsiya ilə mübarizə və digər sahələrə dair fəaliyyətləri tənzimləyir.

Mövcud məqsədlərə nail olmaq üçün universitet tərəfindən Ətraf Mühitin Mühafizəsi Komitəsi (ƏMMK) yaradılmışdır. ƏMMK ətraf mühitə təsirləri azaltmaq, səmərəliliyi artırmaq, universitetdə və ətraf ərazilərdə mövcud resurslardan optimal istifadə üçün davamlı fəaliyyət planını müəyyənləşdirir. Komitəyə akademik, tədqiqat, maliyyə və tələbə xidmətləri ilə məşğul olan müxtəlif funksional şöbə rəhbərləri daxildir. Davamlı inkişaf çərçivəsində planlaşdırılan və həyata keçirilən proseslərə dövrü olaraq ƏMMK tərəfindən nəzarət həyata keçirilir.

**Rektor v.m.i.e** **dosent Vazeh Əskərov**